інтелектуального потенціалу держави // Вища шк. 2010. № 2. С. 52-60.

6. Бублик Н. Бібліографічне видання з питань розвитку вищої освіти в умовах інтеграції України до Європейського освітнього простору // Вища шк. 2014. № 2. С. 99-105.

7. Вахович І., Іщук Л., Пиріг С. Стан і проблеми вищої освіти в Україні. *Актуальні проблеми економіки*. 2014. № 1. С.63-70.

8. Вища освіта України і Болонський процес : навч. посіб. / за ред. В.Г. Кременя. Тернопіль: навч. кн. Богдан, 2004. 384 с.

9. Загірняк М. Реформування вищої освіти України за вимогами Міжнародної стандартної класифікації освіти. *Шлях освіти*. 2013. № 2. С. 6-12.

**UOT 378**

## MÜASİR TƏHSİL SİSTEMİNİN PROBLEMLƏRİ

*Namazova Aynur Məhəmməd qızı*
*Mingəçevir Dövlət Universiteti, müəllim (Azərbaycan)*
*Azərbaycan Dövlət İqtisad Universiteti, dissertant (Azərbaycan)*

Təhsil cəmiyyətin inkişafının açarıdır. Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin 19 iyun 2009-cu il tarixdə təsdiq etdiyi "Təhsil haqqında" Qanunun ilk müddüasında qeyd edilmişdir ki, "Bu Qanun vətəndaşların Azərbaycan Respublikası Konstitusiyasında təsbit olunmuş təhsil hüququnun təmin edilməsi sahəsində dövlət siyasətinin əsas prinsiplərini və təhsil fəaliyyətinin tənzimlənməsinin ümumi şərtlərini müəyyən edir, təhsilin ayrı-ayrı pillələri üzrə müvafiq qanunların və digər normativ hüquqi aktların qəbul edilməsində baza rolunu oynayır".

Təhsil hər bir kəsə öz təsirini göstərməklə nəticəsini cəmiyyətin bütün inkişaf mərhələlərində özünü biruzə verir. Təhsil - cəmiyyətin tərəqqisinin hərəkətverici qüvvəsidir, intellektual potensialı formalaşdırır, xalqın ümidli gələcək sferasını yaradır, yoxsulluğu aradan qaldırır və xalqın rifahını yaxşılaşdırır, hüquqi cəmiyyətin qurulmasında əvəzsiz rol oynayır, vətəndaşı cəmiyyətdə ən məhsuldar təfəkkürlü qüvvəyə çevirir, fərdin və ya kollektivin ümumi inkişafını təmin edir, milli-mənəvi dəyərləri qoruyur və tənzimləyir, insan kapitalını formalaşdırır və s.

Müasir təhsilin irəli aparılması istiqamətində əsaslı islahatlar həyata keçirilsə də, müəyyən boşluqlar hələ də var və onların həlli labüddür. Bu kimi problemləri aşağıdakı kimi şərh etmək olar:

- Bəzi kənd yerlərində müxtəlif fənlər üzrə müəllim çatışmazlığı hələ də qalmaqdadır.
- Məktəbəqədər təhsilə cəlb olunma səviyyəsi hələ də aşağıdır.
- Bəzi məktəb və ali təhsil müəssisələrində xarici dillərin tədrisinin

aşağı səviyyədə olması təhsil alan tələbələri əlavə kurslara məcbur edir;

- Əmək bazarının tələblərinə uyğun olmayan, səmərəsiz kadr hazırlığı ölkədə bəzi sahələrdə kadr çatışmazlığı ilə, bəzi sahələrdə isə işsizlik probleminin yaranmasına gətirib çıxarır;
- Ali təhsil müəssisələrini bitirənlərə təyinat sisteminin tətbiq olunmaması ən böyük problemlərindən biridir.

Bu kimi problemlərin həlli davamlı inkişaf üçün vacibdir. Buna görə də ölkə rəhbərliyi bu istiqamətdə ardıcıl tədbirlər həyata keçirir. Bu və ya digər problemlərin azaldılması üçün aşağıdakı perspektiv tədbirlərin görülməsi təhsilin keyfiyyətinin yaxşılaşdırılmasına imkan yarada bilər:

- Yeni kurikulumların hazırlanması və tətbiqi;
- Ali təhsil müəssisələrinə ixtisas seçimi prosesinə daha ciddi nəzarət olunması, xüsusən əmək bazarının tələbi ilə üst-üstə düşməyən ixtisasların başqaları ilə əvəz olunması, eləcə də abituriyentlərə ixtisas seçimi öncəsi ixtisaslarla bağlı ətraflı məlumatların verilməsi (ixtisasların gələcəkdə abituriyentlərə nə qazandıra biləcəkləri, iş prosesində hansı işləri görəcəkləri haqqında ətraflı məlumatları əks etdirən broşuraların yayımlanması ixtisas seçimi səhvlərinin aradan qaldırılmasına yardımçı ola bilər);
- Ucqar kəndlərdə yeni məktəblərin inşası və təhsilə cəlb olunma səviyyəsinin yüksəldilməsi.
- Orta və ali təhsil müəssisələrində xarici dillərin tədrisinə yerli müəllimlərlə yanaşı xaricdə təhsil almış, eləcə də xarici müəllimlərin cəlb edilməsi və ya xarici dil müəllimlərinin peşəkarlıq səviyyəsini artırmaq üçün onların müvafiq ölkələrdə kurs keçmələrinə imkanlar yaradılması;
- Ali təhsil müəssisələrində təyinat sisteminin tətbiqi (əgər bakalavr pilləsində bunu etmək mümkün deyilsə, magistratura pilləsini bitirənlərə təyinatla iş imkanı yaratmaq. Bu da mümkün olmasa, həmin pilləni fərqlənmə ilə bitirənlərə təyinat tətbiq etmək həm təhsilin səmərəsini artırmış olar, həm də tələbə və magistrantlara əlavə stimul olar).

Orta və ali təhsil müəssisələri üçün nəzərdə tutulan bu təkliflərin həyata keçirilməsi dövlət orqanlarının üzərinə düşsə də, bu işdə məktəb müəllimləri və tələbələrin də fəallığı və onların proseslərdə yaxından iştirakı həmin problemlərin həllinin sürətlənməsinə imkan yarada bilər.

*Ədəbiyyat:*

1. https://e-qanun.az/framework/18343
2. R.Məmmədzadə, A.Abdullayev, F.Kərimova R.Cabbarov, S.Rəsulov, Ə.Quliyev. Təhsilin Idarə Edilməsinin Bəzi Problemləri. Bakı 2008.